# Biz sizdən öyrəndik qəhrəmanlığı

**Şah İsmayıl Xətainin üç vəsiyyətindən biri dilimizi, digəri qeyrətimizi, üçüncüsü də Vətənimizi qorumağı və sevməyi bacarmaq olub**

Bu gün yerindən qalxan cavanlar arasında öz ata-babalarına oxşar qorxmaz, igid oğullar var. Və onlar düşmənin bağrını hər an dəlməyə hazırdırlar. Damarında əsl türk qanı axan, el qeyrəti, el təəssübü çəkən vətənpərvər oğullarımız çoxdur. Bir də axı, biz Koroğlu, Babək, Cavanşir nəslindən olub, Ə.Şıxlinski, S.Mehmandarov, H.Aslanov kimi sərkərdələrin varisləriyik.

Ulularımız torpağa da ana deyiblər. Namusları, qeyrətləri sayıblar onu. Bizim xalq torpaqlarına pis niyyətlə baxanın gözlərinə od ələyib, bir qarış uğrunda canlarından keçiblər. Bir sözlə, torpaq uğrunda ölməyi də bacarıblar, öldürməyi də.

Torpaqlarımızın 20 faizi nankor ermənilərin işğalı altındadır. Ermənilər xoşluqla geri çəkilmək istəmirlər. Vaxt gələcək qatillər öz layiq olduqları cəzalarına çatacaqlar. Qələbə bizimlə olacaqdır.

Bu gün Vətənə sipər, düşmənə çəpər oğullar gərəkdir. Qaymaqlı kənd mədəniyyət evinin işçiləri gəncləri hərbi-vətənpərvərlik ruhunda tərbiyələndirmək məqsədi ilə bir-birindən maraqlı tədbirlər hazırlayıb həyata keçirirlər. Bu yaxınlarda keçirdiyimiz tədbir «Biz sizdən öyrəndik qəhrəmanlığı» adlanırdı. Yetişməkdə olan gənc nəsli vətənpərvərlik ruhunda tərbiyələndirmək üçün biz müharibə veteranlarının gücündən istifadə edirik.

Böyük Vətən müharibəsinin veteranı Musa Mustafayevin 87 yaşı var. O, Qafqazdan – Berlinədək şanlı cəbhə yolu keçib, hünər və şücaətinə görə 3 «Qırmızı Ulduz» ordeni, «Döyüş Şöhrəti» ordeni, 8 döyüş medalı, 10 dəfə Ali Baş Komandanın təşəkkürünü almışdır.

Qarabağ müharibəsinin qəhrəmanı, Milli Ordumuzun «Mixaylo»su Azər Kazımov kəndimizin sayılıb-seçilən igidlərindən biri olmaqla, ermənilərin qənimi olmuşdur.

Müharibə veteranları M.Mustafayev və A.Kazımov bu gün vətən qarşısında borcunu yerinə yetirmək üçün hərbi xidmətə gedən çağırışçı gənclərə dəyərli nəsihətlər verir, onlara vətəni, torpağı göz bəbəyi kimi qorumağı tövsiyə edirlər.

Azərbaycan Respublikasının prezidenti İlham Əliyev cənablarının ordu quruculuğu sahəsində həyata keçirdiyi islahatlar ürəyimizcədir. Bu gün iftixar hissilə qeyd etmək olar ki, müstəqilliyimizin və ərazi bütövlüyümüzün qarantı olan güclü və qüdrətli Ordumuz vardır. Azərbaycan Respublikasının prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Dağlıq Qarabağ problemi də yaxın vaxtlarda öz həlli yolunu tapacaqdır.

Biz mədəniyyət işçiləri bundan sonra da yeniyetmələrin və gənc nəslin hərbi-vətənpərvərlik ruhunda tərbiyələnməsi işini davam etdirəcəyik.

**K. KAZIMLI,**
***Qaymaqlı kənd mədəniyyət evinin müdiri***
Qazax rayonu